

GÜLÇÖHRƏ MƏMMƏDOVA,
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MEMARLIĞIN İNKİŞAFI

*"Dünya, ümumiyyətlə, quruculuqla, tikib-yaratmaqla yaşayıb, inkişaf edibdir".*

*Heydər Əliyev*

Azərbaycan xalqı sivilizasiya tarixində bəşəriyyətə zaman-zaman böyük elm, sənət dahiləri bəxş etmiş, öz varlığı ilə dünyanın inkişafından kənarda qalmamış, əksinə bəşəriyyətin tərəqqisinə öz töhvələrini vermişdir.

Azərbaycanın ulu tarixində genişmiqyaslı inkişaf və quruculuq dövrləri çox olmuşdur. Onlar ölkənin iqtisadiyyatını, mədəniyyətini keyfiyyətcə yeni bir səviyyəyə qaldıraraq, Azərbaycan xalqının tarixinə mühüm, həlledici bir dövr kimi daxil olmuşlar. Ölkəmizin tarixində siyasi şüurun, elmin, sənətin və iqtisadiyyatın hərtərəfli inkişaf dövrü olan XX əsrin 70-80-ci illəri belə bir mərhələdir.

Bu dövr, sözün əsl mənasında, dönüş mərhələsi, inkişaf təməllərinin quruculuğu dövrü olmuşdur. Bütün ictimaiyyətin, tarixçilərin etiraf etdiyi kimi, 70-80-ci illər Azərbaycanın quruculuq salnaməsinin ən məhsuldar, işıqlı səhifələri olmuşdur. Həyata keçirilən böyük dəyişikliklər tutumuna və həcminə görə, iqtisadi və sosial sahələrdə tətbiq olunan islahatlar Azərbaycan xalqının maddi rifahının keyfiyyətcə yeni mərhələyə çatmasına böyük təkan vermişdi. Ölkəmizin böyük inkişaf dövrü Möhtərəm Prezidentimiz Heydər Əliyevin adı ilə onun xalqımızın və ölkəmizin inkişafı, dövlətimizin və müstəqilliyimizin möhkəmlənməsi yolunda yorulmaz fəaliyyəti ilə bağlıdır.

Müasir Azərbaycan tarixinin ən parlaq, ən işıqlı, ən möhtəşəm səhifələrində bu dahi insanın adı ilə bağlıdır. 1993-cü ildən sonra ölkənin ictimai-siyasi, iqtisadi həyatında gedən genişmiqyaslı reformalar nəticəsində ölkəmiz XXI əsrə demokratik, sivil, yüksək templə inkişaf edən bir dövlət kimi qədəm qoymuşdur. Xalqımız böyük qürur, sevinc və minnətdarlıq hissi ilə möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının fədakar və fövqəladə əməyini qiymətləndirir və dəyərləndirir.

Heydər Əliyev cənabları, hələ keçən əsrin 70-ci illərində gələcəkdə Azərbaycanın iqtisadi müstəqilliyini təmin etmək məqsədilə iqtisadiyyatın bütün sahələrində olduğu kimi, memarlıq və inşaat sahəsində də qurucu, yaradıcı gənc kadrların hazırlanmasının vacibliyini ön plana çəkərək, Azərbaycanda savadlı və qabiliyyətli memar və inşaat mühəndisləri hazırlanması üçün Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun yaradılması haqqında sərəncam verdi. Azərbaycan İnşaat Mühəndisləri İnstitutu öz fəaliyyəti dövründə, nəinki doğma Vətənimiz üçün, eyni zamanda dünyanın onlarla ölkəsi üçün yüksək ixtisaslı kadr hazırlığını təmin etmiş, özünün maddi-texniki bazasını genişləndirmiş, elmi potensialını daha da inkişaf etdirmişdir.

"Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar" kəlamını söyləyən Prezidentimiz Heydər Əliyev universitetimizin alimlərinin diqqətini, nəinki müasir şəhərsalmanın problemlərinə yönəldir, eyni zamanda Azərbaycan memarlığının tarixini öyrənməyə, tarixin daş yaddaşında qorunub saxlanmış Azərbaycan memarlığının incilərini milli sərvətimiz kimi tədqiq etməyi və bərpa edərək gələcək nəsillərə çatdırmağa bir vəzifə kimi onların qarşısında qoyur. Fəxrlə deyə bilərəm ki, 70-80-ci illərdə H.Əliyev cənablarının memarlıq irsimizə böyük qayğısı nəticəsində Bakıda və ölkəmizin digər bölgələrində 52 tarixi-memarlıq abidəsi bərpa olunmuşdur.

Dövlətimizin rəhbəri Heydər Əliyevin gərgin əməyi nəticəsində respublika başdan-başa dəyişərək, inkişaf etmiş, dövrün qabaqcıl bir ölkəsinə çevrilmişdi. Bütün sahələrlə yanaşı, bu dövrdə memarlıq və inşaat sahəsi də çox böyük sürətlə inkişaf etmiş, kəndlərin və şəhərlərin siması dəyişmişdir.

Bakıda və respublikanın başqa şəhərlərində memarların yüksək ustalığından xəbər verən ictimai və yaşayış binaları, baglar, parklar, memarlıq ansamblları meydana gəlmişdir.

Bakının memarlıq simasına xüsusi diqqət yetirən H.Əliyev respublika paytaxtının ən mühüm şəhərsalma qovşaqlarının və böyük əhəmiyyətə malik olan ayrı-ayrı qurğuların layihələşdirilməsi üçün ümumittifaq və respublika miqyaslı müsabiqələr keçirilməsinə nail olurdu. Təkcə 1979-1982-ci illərdə bu qəbildən 8 müsabiqə, o cümlədən Moskvanın, Leninqradın (Sankt-Peterburqun) və keçmiş İttifaqın digər şəhərlərinin ən iri layihə təşkilatlarının iştirak etdiyi 3 ümumittifaq müsabiqəsi keçirilmişdi.

Həmin dövrdə respublikanın bütün şəhərlərinin baş planlarının layihələşdirilməsi ilə bağlı işlər aparıldı. 2005-ci ilədək olan dövrdə Bakının inkişafının "Bakıdövlətşəhərlayihə" İnstitutunun kollektivi tərəfindən hazırlanmış baş planı bu cür layihələr arasında xüsusi yer tuturdu. H.Əliyev Bakının Baş planının işlənib hazırlanmasını diqqətlə izləyir, bu planla bağlı ən mühüm problemlərin müzakirəsində şəxsən iştirak edirdi. Şəhərin infrastrukturunun inkişafına xüsusi diqqət yetirilirdi. Nəqliyyat problemlərinin həlli bu məsələnin ən mühüm tərkib hissəsi idi. Bu məqsədlə sürət magistrallarının çəkilməsi nəzərdə tutulmuş, Bakı metropoliteni şəbəkəsi xeyli genişləndirilmişdi.

Bakı metropoliteninin istifadəyə verilməsi respublika əhalisinin həyat səviyyəsinin yüksəldilməsində mühüm bir addım idi. Heydər Əliyevin böyük xidməti ondan ibarətdir ki, o bu tikintini bütün zəruri vasitələrlə təmin etməyi bacardı və

Bakı metropoliteninin stansiyaları vaxtlı-vaxtında, özü də çox yüksək texniki və bədii səviyyədə tikilib istifadəyə verildi. Stansiyaların tikilməsində Moskvanın və Sankt-Peterburqun metro inşaatçıları iştirak edir, stansiyaların tərtibatında Rusiyadan və Ukraynadan gətirilmiş ən yaxşı mərmərdən və qranitdən istifadə edilirdi. Azərbaycan memarları metropoliten stansiyalarının - bu yeraltı sarayların son dərəcə ifadəli, qeyri-ordinar memarlıq həllərini tapmağa müvəffəq olurdular.

Baş plana əsasən Bakının və Abşeron yarımadasının yaşıllaşdırılması üçün geniş proqram həyata keçirilməsi də nəzərdə tutulurdu. Heydər Əliyev bu problemlə də şəxsən məşğul olurdu. 1971-ci ildə "Bakının və Abşeron yarımadasının daha da yaşıllaşdırılması tədbirləri haqqında" qərar qəbul edildi. Bakının və Abşeronun ətrafında yaradılması nəzərdə tutulan meşə-park zonası həmin ərazidə mikroiqlimin yaxşılaşmasına, təmiz hava rezervuarı yaradılmasına, ərazini küləklərdən və təbii erroziyadan qorumağa kömək etməli idi. Görülən işlər nəticəsində 70-ci illərdə yaşıllaşdırma işlərinin geniş vüsət alması nəticəsində Bakının yaşıl örtüyünün sahəsi 3 dəfədən çox artmışdır.

Bakının özünün yaşıllaşdırılması üçün də irimiqyaslı işlər görülürdü. Dənizkənarı parkın və Neftçilər prospektinin planlaşdırma və bədii-estetik simasının yeni əsaslarda formalaşması məqsədi ilə 1973-1980-ci illərdə keçmiş SSRİ miqyasında müsabiqə elan edildi. Dənizkənarı bulvarda yenidənqurma işləri aparılmış, bulvarın uzunluğu 3 kilometrə çatdırılmışdı.

70-ci illərdə Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Əli Bayramlı, Mingəçevir və başqa şəhərlərdə mənzil tikintisi xeyli geniş miqyas almışdı. Respublika rəhbərliyi və şəxsən Heydər Əliyev respublikanın memarlar və inşaatçıları qarşısında çox möhtəşəm bir məsələ qoymuşdu - mənzilə ehtiyacı olanların hamısı 2000-ci ilədək müasir və abad mənzillərlə təmin edilməli idi. 1982-ci ildə respublikada mənzil fondunun ümumi sahəsi təqribən 64 milyon kv. metrə çatdırıldı. 70-ci illərdə ilk beş mikrorayona daha dördü əlavə edildi. Yaşayış binalarının və ictimai binaların nomenklaturasının genişlənməsi mikrorayonların memarlıq obrazını müasirləşdirməyə imkan verdi. Geniş və yaşıl həyətli doqquzmərtəbəli binaların yerləşdiyi yığcam yaşayış massivləri salındı.

Şəhərin ən iri yaşayış rayonlarından biri Bakının şərqində salındı. 400 min nəfərin məskunlaşması üçün nəzərdə tutulan bu massivdə aparılan intensiv tikinti işləri qısa müddətdə abad və müasir yaşayış rayonu yaratmağa imkan verdi və minlərlə bakılı pulsuz mənzillər aldı. Mənzil tikintisinin geniş miqyas alması şəhər ərazisinin abadlaşdırılması, uşaq müəssisələri şəbəkəsinin, xəstəxanaların, poliklinika və kinoteatrların tikintisi ilə müşayiət olunurdu.

Azərbaycanın digər şəhərlərində də boş ərazilərdə iri mənzil tikintisi aparılırdı. Gəncədəki Yeni Gəncə, Naxçıvandakı Yeni Naxçıvan mikrorayonları, Sumqayıtdakı 13-cü, 17-ci mikrorayonlar və başqaları memarlıq və kompozisiya həllinə görə ən uğurlu mikrorayonlar hesab edilir.

H.Əliyev respublikanın paytaxtı Bakı şəhərində ictimai binalar tikintisinə xüsusi qayğı və diqqət yetirirdi. 70-ci illərdə iri ictimai binaların, mehmanxana komplekslərinin, konsert salonlarının tikintisi xüsusilə geniş vüsət almışdı. Həmin illərdə şəhərin baş meydanı olan Azadlıq meydanının ətrafındakı tikililərin ucaldılması ən mühüm layihələrdən biri idi. Meydanın qərb tərəfində yerləşən "Azərbaycan" və şərq tərəfindəki "Abşeron" otelləri (memar M.Hüseynov) meydanın kompozisiyasını tamamlamışlar.



70-ci illərdə arxitektura və şəhərsalma işləri sahəsində görülmüş mühüm işlərdən biri də "Respublika" sarayının ucaldılması və sarayın qarşısındakı geniş ərazinin təmizlənib abadlaşdırılması oldu. Bakıda ən iri tamaşa müəssisələrindən biri olan bu sarayın konsert zalı 2500 tamaşaçı tutur. Heydər Əliyev bu sarayın tikintisinə xüsusi diqqət yetirirdi. Ən mühüm ictimai və siyasi toplantıların keçirilməsi üçün nəzərdə tutulan bu binada aparılan bəzək işlərində bahalı materiallardan, mərmədən, ağacdan və sintetik xalçalardan istifadə edilmişdir.

70-ci illərdə Heydər Əliyevin ciddi diqqət yetirdiyi məsələlərdən biri də Bakı sərnişin vağzalının yenidən qurulması idi. Aparılan işlər nəticəsində Füzuli küçəsinin perspektivi tamamlanmış oldu. Yeni vağzal binasının plastik həcmi metronun "28 May" stansiyasının yerüstü binası ilə üzvi şəkildə birləşərək, vəhdət təşkil edir. Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlının bu meydanda ucaldılmış abidəsi (heykəltəraş A.Mirqasımov, arxitektor Y.Qədimov) vağzalyanı meydanın məkanının kompozisiya baxımından tamamlanmasında əvəzsiz rol oynayır. "Respublika" sarayı qarşısındakı geniş meydan və bağ, eləcə də vağzalyanı meydan - Bakının Baş planında nəzərdə tutulan Füzuli bulvarının yaradılması istiqamətində həyata keçirilən ilk tədbirlərdir. Ötən dövrdə təəssüf ki, bu işlər dayandırıldı. Onların yenidən başlanması çox vacibdir.

Azərbaycan Ali Sovetinin (arxitektorlar T.Abdullayev və X.Rəhmanova) və "Anba" (keçmiş "Moskva") mehmanxanasının binaları (arxitektor M.Hüseynov) Bakının mühüm şəhərsalma sahəsi olan Nərimanov prospektinin tərtibatını tamamlamış oldu.

80-ci illərdə şəhərin qərbindəki sahilyanı esplanadanı tamalayan təpədə də maraqlı arxitektura-tərtibat işləri görülmüşdür. Şəhərin bu hissəsində "Gülüstan" sarayının və "Ziyafətlər evi"nin tikilməsi respublikanın memarlıq həyatında mühüm hadisələr oldu. H.Əliyev bu tikililərin ucaldılmasına və onların arxitektura tərtibatına xüsusi diqqət yetirirdi. "Gülüstan" sarayının müəllif kollektivi 1982-ci ildə Azərbaycanın Dövlət mükafatına layiq görülmüşdür. Yüksək vəzifəli qonaqların qəbul edilməsi üçün nəzərdə tutulmuş "Ziyafətlər evi" (arxitektor R.Əliyev) ətraf mühitə çox uğurla uyuşur. İri formalarda, lakin üzərində zərif detalları olan bu bina təpənin ümumi panoramasını bəzəyir.

80-ci illərdə Bakıda şəhərin ayrı-ayrı rayonları üçün bir neçə inzibati bina tikilmişdir. Belə binalar arasında ən maraqlıları şəhərin Nəsimi, Nərimanov və Nizami rayonlarında yerləşir. O illərdə ucaldılmış ən mühüm inzibati bina - "Prezident Aparatı" binasıdır (arxitektor T.Abdullayev). Bu binanın ucaldılması ideyası şəxsən Heydər Əliyevə məxsus idi. Binanın inşası bilavasitə onun nəzarəti altında həyata keçirilirdi. H.Əliyev vaxtaşırı bu tikintiyə gəlir, inşaat işlərinin ge-

dişi ilə maraqlanırdı. Onun bu məsələyə marağı tikintinin sürətinə və keyfiyyətinə həlledici təsir göstərdi.

Respublikada sənayenin inkişafı H.Əliyevin əsas qayğılarından biri idi. Sənaye istehsalının artırılması üçün müasir texnologiya, ən yeni texniki avadanlıqlar və yüksək səviyyəli təmizləyici sistemlərlə təchiz edilmiş yeni sənaye qurğularının tikilməsi tələb olunurdu. Bu cür sənaye qurğularının çoxu Bakıda ucaldılırdı. "Azərbaycan" nəşriyyatının qəzet korpusunu, Bakı ayaqqabı fabrikini, Bakı məişət kondisionerləri zavodunu, Şampan şərabı zavodunu, Mərkəzi şəhər Telefon stansiyasının binasını və başqalarını bu cür obyektlərə aid etmək olar.

Bakı Məişət Kondisionerləri Zavodu (arxitektor Y.Tişşenko, şərikli müəlliflər - arxitektorlar E.Aslanov, K.Kapinus, Ş.Seyidzadə, S.Kuznetsov) arxitektura baxımından ən maraqlı sənaye müəssisələrindən biridir. Heydər Əliyev bu zavodun inşasına xüsusi diqqət yetirir, tikintinin gedişi ilə müntəzəm məşğul olurdu. 1975-ci ilin dekabr ayında zavod istifadəyə verildi. 1982-ci ildə Heydər Əliyev çox məsuliyyətli bir vəzifə - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və Moskvaya getdi. Lakin respublikada aparılan şəhərsalma və abadlaşdırma işləri, mənzil sahələrinin və ictimai binaların tikilməsi yenə də daim onun diqqət və qayğı mərkəzində olaraq qalırdı. Respublikanın şəhərlərində tikintisi yarımçıq qalmış obyektlərin inşası başa çatdırılır, yeni obyektlərin tikintisi başlanırdı. Məsələn, "Şərq bazarının" (1983), "İdman sarayının" (1984), metronun "Elmlər Akademiyası", "İnşaatçılar" və "Memar Əcəmi" (1986) stansiyalarının inşası, eləcə də Sumqayıtda kimyaçıların mədəniyyət sarayının (1985), Naxçıvanda Xoreoqrafiya və uşaqların bədii tərbiyəsi məktəbinin binasının (1984) və başqa obyektlərin tikintisi başa çatdırıldı.

Son illərdə Azərbaycanda gedən inşaat, quruculuq işləri ölkəmizin iqtisadiyyatının və mədəniyyətinin inkişafının nəticəsidir. Bakı şəhərinin simasının dəyişməsi, onlarla yeni gözəl binaların tikilməsi və bu proseslərin artıq respublikanın başqa şəhərlərində başlanması hamını sevindirir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin son illərdə imzaladığı fərman və sərəncamlarda respublikamızın bir sıra taleyüklü problemləri açılıb göstərilmişdir. Zəngin maddi-mədəniyyət abidələrimizə qayğı ilə yanaşan möhtərəm Prezidentimiz Heydər Əliyevin "Bakı şəhərində İçərişəhər tarix-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamı bu baxımdan daha əhəmiyyətlidir. Cənab Prezidentin tarixi-mədəni irsimizə bu diqqət və qayğısı hamımız üçün nümunə olmalı, və bütün ictimaiyyətin diqqətini dağılan memarlıq və tarixi abidələrimizə cəlb etməlidi.

Otuz üç il tarix üçün elə bir böyük zaman kəsiyi deyil. Amma müdrik və aqil o insanlardır ki, tarix üçün o qədər də böyük olmayan 33 il müddətində bəşəriyyətə bütöv bir əsrin verə biləcəyi zəngin mədəni irs, sərvət bəxş edirlər. Bu mənada milli dövlət quruculuğumuzun böyük memarı Heydər Əliyev irsi hər bir azərbaycanlının həyat dərsliyidir. Bu dərslikdən isə hər birimizin öyrənəcəyi çox şeylər var.